*Qətlə yetirilmiş azərbaycanlı təhqiqatçı-jurnalist Elmar Hüseynovun həyat yoldaşı və digər kədərlənənlər hökumətdən bu qətlin üstünün açılmasını və KİV-ə daha geniş azadlıq verilməsini tələb edirlər.*

*Mənbə: Röyter / Rafail Şakirov*

# Azadlıq və yasaq arasında:

## Qarabağ münaqişəsinin kütləvi informasiya vasitələrində işıqlandırılması


Mark Qriqoryan və

Şahin Rzayev


Qarabağ münaqişəsinə post-Sovet Ermənistan və Azərbaycanda söz azadlığının dəyişkən taleyini izləmək üçün maraqlı prizma kimi baxıla bilər. Bu iki ölkənin heç birində dövlətdən, siyasi qüvvələrdən və biznes mənafelərindən asılı olmayan sağlam KİV formalaşa bilmədi. Münaqişə zamanı senzura altında olan və sovet ənənələrinə uyğun işləyən KİV-in zəif tərəfləri və hadisələri düzgün işıqlandırılmasında bacarıqsızlığı üzə çıxdı. Lakin 1994-cü ilin atəşkəsindən sonra yaranmış vəziyyətdə KİV yenidən tərəflərin rəsmi mövqelərini əks etdirməyə başladı. Bu proses cəmiyyəti bürümüş qələbə və ya məğlubiyyət əhval-ruhiyyəsi altında meydana gələn siyasi mövqelərin unifikasiyası və post-sovet informasiya bazarının siyasi iqtisadiyyatı ilə bağlı idi. Hazırda münaqişənin işıqlandırılması daha çox millətçi çalarlara boyanıb. Bununla belə, Ermənistan KİV-in yaranmış status-kvodan razı qalmağa daha çox səbəbi olduğundan, bir qayda olaraq, onlar daha təmkinli görünür və yaxın münasibətlərin bərpa edilməsinə hazır olduqlarını bildirirlər. Lakin hər iki ölkədə münaqişənin nizamlanması istiqamətində aparılan danışıqlar prosesinin məzmunu barəsində cəmiyyətlər qərəzsiz və hərtərəfli məlumat almaqdan məhrumdurlar. Belə informasiya çatışmazlığı ictimaiyyətin sülh prosesində tutarlı iştirakına mane olur.

### Sovet illəri (1988-1990)

1988-ci ildə Stepanakert və Yerevanda Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Sovet Ermənistanına birləşməsi uğrunda hərəkatın baş qaldırmasına qədər SSRİ mətbuatı öz yüksəliş mərhələsini yaşayırdı. Mixail Qorbaçovun elan etdiyi aşkarlıq siyasəti sayəsində mərkəzi mətbuat əvvəllər məxfi olan arxiv sənədləri, qadağan edilmiş bədii əsərləri və sovet siyasətini tənqid edən məqalələri nəşr edirdi. Lakin bütün bunlar keçmişlə bağlı idi. Cari hadisələrin işıqlandırılmasında mətbuat obyektiv informasiya əvəzinə yalnız ölkə rəhbərliyinin təklif və təsdiq etdiyi mövqeyin şərhini və təhlilini verməkdə davam edirdi.

Bu stereotiplərə tamamilə uyğun olaraq, Stepanakertdə, və sonradan Yerevanda minlərlə insanın iştirak etdiyi mitinqlərə sovet mətbuatı tam sükutla reaksiya verdi. Azərbaycanlıların Ermənistanın Qafan rayonunu tərk etməsi haqqında heç bir informasiya getmədi, Azərbaycanın Sumqayıt şəhərində ermənilərin qətllərinə dair məlumat çox cüzi idi. Bunun əvəzinə KİV-ri "SSRİ xalqlarının dostluğu" və "sosialist beynəlmiləlçiliyin" ənənəvi ibrətverici təbliğatı ilə məşğul idilər. Yüz minlərlə mitinq iştirakçıları "millətçi və ekstremistlərdən ibarət kiçik bir dəstə" adlandırılırdı. Bu damğalar erməni millətini bürümüş coşqunluq və ruh yüksəkliyi hissinə tamamilə zidd idi və həqiqətə uyğun


Şahin Rzayev Azərbaycan Dövlət Neft Akademiyasını mühəndis diplomu ilə bitirmişdir. Keçmişdə "İstiqlal" qəzetinin müxbiri kimi çalışan jurnalist, 1999-cu ildən Müharibə və Sülh İnstitutunun Azərbaycan üzrə müxbiridir.

Yerevandakı Qafqaz Media İnstitutunun təsisçisi olan Mark Qriqoryan ona qarşı hazırlanmış sui-qəsddən sonra Londona köçmüşdür. Keçmiş Sovet İttifaqında jurnalistika mövzusunda bir sıra məqalə və kitabların müəllifidir, bölgədən olan jurnalistlər üçün treninqlərin təşkilatçısıdır. Hazırda BBC-nin Dünya Xidmətinin prodüseri kimi çalışır.




deyildi. Bu cür informasiya boşluğu azərbaycanlıların da ümidlərini doğrultmurdu, çünki onlar yalnız "Qarabağ və onun ətrafında nələrinsə baş verdiyini" bilirdilər. 1988-ci ilin yay və payızında münaqişənin hər iki qütbündə duran insanlar əmin idilər ki, mərkəzi telekanallar və qəzetlər onların düşmənlərinin tərəfini saxlayırlar, bu vaxt isə yerli KİV münaqişəni qətiyyən işıqlandırmırdı.

Sovet mediasının münaqişənin bütün kəskinliyini xalqdan gizlətmək cəhdi nəticəsində məlumat boşluğunu şayiə və uydurmalar tutaraq münaqişənin daha da gərginləşməsinə səbəb oldu. Bu vəziyyətdə insanlar alternativ məlumat mənbələrini axtarmağa məcbur idilər. Meydan bu mənbələrdən birinə çevrildi. Hətta "məlumat mitinqi" anlayışı meydana gəldi. "Samizdat" yolu ilə gizli şəkildə çapdan çıxan dissident nəşrləri başqa bir məlumat mənbəyi oldu. Kommunist mətbuatında dərc edilməyən və yalnız bir neçə nəfərə məlum olan "həqiqəti" sovet "samizdat"ında tapmaq mümkün idi. Səksəninci illərin axırlarında millətçi və anti-sovet materialları nəşr edən "samizdat" öz inkişaf dövrünü yaşayırdı. Beləcə, 1989-cu ilin ortalarında Yerevanda ondan artıq gizli dövri qəzet və vərəqələr çıxırdı. Bakıda müstəqil mətbuatın ilk nümunəsi Qarabağa Xalq Yardımı Komitəsinin orqanı olan "Azərbaycan" qəzeti oldu. Elə həmin ərəfədə respublika televiziyasında şiddətlənən münaqişəni açıq müzakirəyə qoyan "Dalğa" publisistik verilişi işıq üzü gördü.

1989-cu ilin payızında SSRİ-də "Mətbuat haqqında" qanun qəbul edilməklə senzuraya son qoyuldu və beləliklə yeni qeyri-kommunist qəzetlərin meydana çıxmasına imkan yaradıldı. Cəmiyyətdə formalaşan millətçi mövqe və platformaları həm əks edən, həm də onların mənbəyi olan bu qəzetlər (məsələn Erməni Ümumxalq Hərəkatının orqanı "Ayk" və Azərbaycan Xalq Cəbhəsinin orqanı "Azadlıq" qəzetləri) rəsmi informasiya vasitələrinə alternativ yaratsalar da, əsl müstəqil mətbuatın təzahürü deyildilər. Onlar daha çox sovet stereotipləri və damğalarından, və həmçinin sovet KİV-in norma və qaydalarına uyğun diskursundan imtina edib əks-təbliğatla məşğul idilər. Yeni qəzetlər sovet rəhbərliyi və millətçi düşərgə arasında gedən islahatlar uğrunda mübarizəyə qatıldılar, lakin bu vuruşun şərtlərini əvvəlki kimi hakimiyyət müəyyən edirdi.

## Sovet İttifaqının parçalanması və münaqişənin gərginləşməsi

1991-ci ildə Ermənistan və Azərbaycan müstəqillik elan etdikdən sonra yeni müstəqil qəzetlər nəşr edilməyə başladı. Azərbaycanda "Ayna", "Zerkalo", "Səhər", "7 gün" və "Aydınlıq" kimi yeni nəşrlərin çoxu insanlar arasında böyük rəğbət qazandı. Elə bu dövrdə ilk müstəqil informasiya agentliyi olan "Turan", Etibar Məmmədovun Milli İstiqlal Partiyasının orqanı - "Millət" qəzeti, Əlizadə qardaşlarının Sosial-Demokrat Partiyasının "İstiqlal" qəzeti və İsa Qəmbərin rəhbərlik etdiyi Müsavat partiyasının "Yeni Müsavat" qəzeti fəaliyyətə başladılar. Jurnalist Çingiz Mustafayev "215 KL" müstəqil telestudiyasını təsis etdi. Bu kütləvi informasiya vasitələri müəyyən dərəcədə etibarlı informasiya mənbəyinə çevrildi və münaqişəni keyfiyyətli və vaxtı-vaxtında işıqlandırmağa başladılar. Ermənistanda "Munetik" və "Vremya" kimi müstəqil qəzetlər, "Azq" (Ramkavar-Azatakan partiyasının orqanı) və "Yerkir" (Ermənistan İnqilab Federasiyası "Daşnaksutyun") kimi partiya qəzetləri işıq üzü görüb populyarlaşdı.

Bu nəşrlərin əksəriyyəti Qarabağda baş verən hadisələrin tamamilə zidd versiyalarını həvəslə yayır və dəstəkləyirdi. Ermənistan KİV-ində ermənilər Stalin siyasətinin və bolşevik hakimiyyətinin Türkiyə ilə ərazi sözləşməsinin qurbanı kimi təqdim edilir,

sonralar isə bildirilirdi ki, ermənilər Kremlin siyasi bəsirətsizliyindən və Ankaranın pantürkist niyyətlərindən əziyyət çəkmişlər (bu nəzəriyyəyə əsasən, Bakı Türkiyənin təbii müttəfiqidir). Bundan əlavə, erməni mətbuatına görə, ermənilərin son dərəcə dinc və qanuni çıxışlarına cavab olaraq, azərbaycanlılar Azərbaycanda yaşayan erməniləri terrora, etnik təmizləmələrə və deportasiyaya məruz qoymuş, o cümlədən 1991-ci ilin aprelində "Halqa" əməliyyatını həyata keçirmişlər. Təbii ki, bu cür münasibət auditoriyanın şüurunda "qurban" və "düşmən" obrazlarının həkk edilməsinə kömək edirdi.

Azərbaycan KİV-ində gedən məqalələrdə ziyalılar Azərbaycan beynəlmiləlçiliyini erməni millətçiliyinə qarşı qoyurdular. Bu məqalələrdə Kremldə "ermənilərin dostları", Moskva jurnalistlərinin satqınlığı, Azərbaycanın informasiya blokadasında olması, Ermənistanın Azadlığı uğrunda Erməni Məxfi Ordusu (ASALA) kimi ermənilərin terrorçu təşkilatları və Stalin dövründə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası haqqında söz açırdı. Qarabağın yerli əhalisi assimilyasiyaya uğramış Qafqaz albanları kimi təqdim edilir, Rusiya İmperiyası dövründə ermənilərin Türkiyədən Qarabağa dəfələrlə köçürülməsinə dair faktlar gətirilirdi.

## Qarabağda tam-miqyaslı müharibə

1992-ci ildə Qarabağda artıq tam-miqyaslı müharibə gedirdi. Bu müharibə cəbhəyə müxbir kimi gedən və oradan reportajlar göndərən yeni nəsil jurnalistlərinin təsir səviyyəsi və potensialını üzə çıxartdı. Senzuradan uzaqlarda, qızğın siyasi qalmaqallar dövründə gedən bu işə nəzarət etmək çətin idi. Cəbhədəki hadisələr barəsində rəsmi reportajlar və müstəqil informasiya mənbələrinin yayımladığı şahidlərin səmimi əhvalatları və video çəkilişlər arasındakı fərq hökumətlərin yüksəlməsi və devrilməsinə səbəb olurdu. Məsələn, Azərbaycan prezidenti Ayaz Mütəllibovun istefası, xeyli dərəcədə, 1992-ci ilin fevralında baş vermiş Xocalı hadisələrində qətlə yetirilmiş azərbaycanlıların həqiqi sayının müstəqil KİV-i tərəfindən elan edilməsi ilə bağlı idi.

KİV-in dəstəyi ilə hakimiyyətə gələn qüvvələr onun gücünü diqqət mərkəzində saxladılar. Mütəllibov hakimiyyətini əvəzləyən Əbülfəz Elçibəyin başçılıq etdiyi Xalq Cəbhəsinin qələbəsindən sonra çoxlu sayda yeni nəşrlər və özəl teleradioşirkətlər işıq üzü gördü, KİV haqqında Qanun qəbul edildi. İqtidarı dəstəkləyən KİV-in bu cür tərəqqisi yeni hökumətə sərf edirdi. Əksər kütləvi informasiya vasitələri prezident Elçibəylə həmrəy olduqlarını bəyan edir, Qarabağda "zəfər çalana qədər" müharibə aparmağa çağırırdı. Bu ümumi tendensiyadan ayrı düşən yalnız Sosial-Demokrat Partiyasının "İstiqlal" qəzeti oldu: 1992-ci ilin yayında, azərbaycanlıların apardığı hücumun ən qızğın vaxtında - Mardakert/Ağdərə şəhəri ələ keçiriləndə qəzetdə "Dayanmaq vaxtıdır!" adlı məqalə çıxdı. Bu çağırış nə KİV-i, nə də əhali tərəfindən eşidilmədi, və tezliklə "İstiqlal" qəzetinin proqnozu gerçəkləşdi - qısamüddətli qələbələr ciddi itkilərlə əvəzləndi. 1993-cü ildə başlayan Azərbaycanın son dərəcə sarsıdıcı hərbi məğlubiyyətlər silsiləsi KİV-ə təzyiqlərlə müşayiət olundu. 1993-cü il aprelin 2-də Kəlbəcərin erməni hərbi hissələri tərəfindən zəbt edilməsindən sonra prezident Elçibəy KİV-də hərbi senzuranın tətbiqi haqqında fərman imzaladı. Tezliklə milli demokratların hakimiyyəti ifşalar nəticəsində deyil, hərbi çevriliş nəticəsində devrildi, lakin həm hərbi, həm də siyasi senzura hələ beş il davam etdi.

Münaqişəyə baxmayaraq, hələ müharibə gedərkən iki ölkənin informasiya agentlikləri arasında sıx əlaqələr yaranmışdı. Bu işdə Azərbaycanın "Turan" və Ermənistanın "Snark" (hazırda "Arminfo") agentlikləri birinci oldular. Bu təşkilatların arasında informasiya mübadiləsi nə hərbi əməliyyatlar zamanı, nə də ondan sonra dayanmırdı.

## Atəşkəs dövrü

1994-cü ildə atəşkəs sazişi imzalandıqdan sonra başlayan dövlət quruculuğu və qüvvətlənmə dövründə hər iki ölkənin KİV-ində yeni sosial və siyasi gerçəklikləri əks edən ciddi dəyişikliklər baş verdi. Kasıblaşmış əhali üçün ən müyəssər və nüfuzlu media növü televiziyadır. Bu fakt həm dövlətin, həm də siyasi ambisiyalar bəsləyən iş adamlarının (və ya qərar verən şəxslərin rəğbətini qazanmaq istəyən biznesin) diqqətindən qaçmadı. Mətbuatda ənənəvi olaraq daha çox muxtariyyət var idisə, hazırda burada da siyasi təşkilatların və dövlətli adamların təsiri hiss olunur. Bundan savayı, resursların məhdud olması, inkişaf etməyən yayım sistemi, daxili senzura və bəzi hallarda jurnalistlərin təqib edilməsi müstəqil mətbuatın inkişafına mane olur.

Atəşkəs dövründə münaqişəyə olan maraq ümumən zəifləməkdədir, baxmayaraq ki, vaxtaşırı sülh prosesində konkret hadisələrlə bağlı bu marağın artması müşahidə olunur. Həm Azərbaycanda, həm də Ermənistanda sülh prosesinə münasibətdə KİV-in iqtidaryönlü və müxalifətpərəst ritorikası bir-birinə demək olar ki, tam yaxındır və bu yaxınlaşma guya milli mənafelər barəsində ictimaiyyətdə olan konsensusu əks etdirir. Bunun nəticəsində digər tərəfin xeyrinə edilə bilən güzəştlərin mahiyyətini və dəqiq məzmununu müzakirə etmək yasaq edilib. Bu yasaqlar həmçinin münaqişə ritorikasında istifadə edilən və son illərdə formalaşan terminologiyada da gözlənilir. Məsələn, Azərbaycanda erməniləri və Ermənistanı mütəmadi olaraq, "təcavüzkar" adlandırırlar. Ermənistan xarici işlər naziri Vartan Oskanyan öz nitqində geniş qəbul edilmiş "təhlükəsizlik zonası" və ya "azad edilmiş ərazilər" şablonları əvəzinə "işğal edilmiş rayonlar" ifadəsini işlətdiyinə görə Ermənistan mediasında böyük hiddət dalğası qalxdı, nəticədə isə nazir sözünü geri götürməyə məcbur oldu.

Ermənistanda müharibədən sonrakı illər ərzində Qarabağ mövzusuna marağın tədricən zəifləməsini

onunla izah etmək olar ki, ictimaiyyət münaqişəni həll edilmiş sayır, çünki Qarabağ *de fakto* ermənilərin nəzarəti altındadır. Münaqişənin sülh yolu ilə həlli üçün zəruri olan güzəştlərin mümkünlüyü cəmiyyətdə nəzərdən keçirilsə də, rəsmi danışıqlarda Ermənistan tərəfinin güzəştlərini KİV-də müzakirə etmək ən ciddi yasaqlardandır. Nadir olan və açıq millətçi çalarlara boyanmış analitik materiallar, bir qayda olaraq, Qarabağın Azərbaycandan ayrılmasının hüquqi və tarixi əsaslarına həsr edilir və ya Ermənistanın Qarabağa və "azad edilmiş ərazilərə" olan hüququndan bəhs edirlər. Münaqişə ilə bağlı olan daha bir mövzu Ermənistan ordusunun gücü mövzusudur.

Ermənistandan fərqli olaraq, Azərbaycan ictimaiyyəti münaqişəni bitmiş hesab etmir və bu nəzər nöqtəsi KİV-də dəstəklənir və yayımlanır. Media tez-tez münaqişənin hərbi yolla həll edilməsi mövzusuna müraciət edir və vaxtaşırı müharibənin açıq təbliğatı ilə də məşğul olur. Məsələn, ANS özəl teleradio şirkəti öz gündəlik xəbərlər buraxılışlarını "Ermənistanın Azərbaycana qarşı təcavüzü davam edir" sözləri ilə başlayır, ANS-in aparıcıları isə Qarabağ savaşı barəsində danışarkən həmişə "birinci Qarabağ müharibəsi" ifadəsini işlədir və beləliklə auditoriyanı ikinci müharibəyə hazırlayırlar. Müxalifət partiyalarını və ya müstəqil QHT-ləri gözdən salmaq üçün Azərbaycanın iqtidaryönlü KİV-i onları "ermənipərəstlikdə" və "ermənilərlə əməkdaşlıqda" ittiham edir. Erməni həmkarları ilə görüşən hüquq müdafiəçiləri və jurnalistlər təzyiqlərə məruz qalırlar.

2002-ci ildən sonra siyasi mühitin kəskin pisləşməsi Azərbaycan KİV-inə də öz təsirini göstərdi. İnzibati və maliyyə təzyiqinin qat-qat artması, qeyri-konformist nəşrlərin təqibi 2005-ci ilin mayında öz kulminasiyasına çatdı. Bu zaman ölkənin ən cəsarətli jurnalı olan "Monitorun" redaktoru Elmar Hüseynov qətlə yetirildi, tezliklə isə jurnal özü də bağlandı. Belə vəziyyətdə müstəqil addımlar atmaq imkanları, o cümlədən erməni jurnalistləri ilə ünsiyyət son dərəcə məhduddur. Bununla belə, həm regional proqram və layihələr çərçivəsində, həm də ikitərəfli qaydada ayrı-ayrı əlaqələr davam etməkdədir. Belə bir regional əməkdaşlığın nümunəsi kimi "İnternyus" şirkətinin Ermənistan, Azərbaycan və Gürcüstan haqqında süjet və reportajlar hazırlayan yarım saatlıq "Yol ayrıcı" verilişini göstərmək olar. Müharibə və Sülh İnstitutu həmçinin regionda müstəqil jurnalistlərə yardım edən layihələr həyata keçirir. Yerevan və Bakı mətbuat klublarının jurnalistləri arasında əlaqələr saxlanılır, o cümlədən birgə rəy sorğuları keçirilir. Lakin Azərbaycan jurnalistləri və Dağlıq Qarabağın erməni jurnalistləri arasında əlaqələr xüsusilə nadir xarakter daşıyır. Əvvəllər erməni və azərbaycanlı jurnalistlərdən ibarət qruplar Bakı və Stepanakertə səfərlər etsələr də, son illər bu əlaqələr kəsildi və yalnız bir-iki jurnalistin səfəri ilə məhdudlaşıb. Son səfərlərdən biri 2005-ci ildə Eynulla Fətullayevin Qarabağa etdiyi və "Realniy Azerbaycan" qəzetində işıqlandırdığı səfər olmuşdu. Stepanakert mətbuat klubunun "Konsorsium Təşəbbüsünün" maliyyə dəstəyi ilə nəşr etdiyi müstəqil "Demo" qəzeti Azərbaycan qəzetlərindən azsaylı çıxarışları dərc edir.

## Müzakirələr üçün imkan?

Qarabağ münaqişəsinin işıqlandırılması post-sovet Ermənistan və Azərbaycan respublikalarında dəyişkən siyasi reallıqların fonunda və təsiri altında gedirdi. Münaqişənin ilk çağlarında KİV-də sovet rejimindən miras qalmış təbliğat və dezinformasiya ənənələri hökm sürürdü. Münaqişə tam-miqyaslı müharibəyə çevrilərkən iki paralel proses inkişaf etməyə başladı: peşəkarlıq səviyyəsinin artımı və KİV-də millətçiliyin yer alması, başqa sözlə, mediada millətçi dəyərlərin və ritorikanın yayımlanması. Hesab edilirdi ki, bu dəyərlər demokratiya ilə tam uyğunluq təşkil edir, çünki milli demokratik qüvvələr, hər halda ilk dövrlərdə, söz azadlığı və plüralizmin tərəfdarları sayılırdılar. Bundan əlavə, 1990-cı illərin əvvəllərini səciyyələndirən müharibə və siyasi qalmaqallar vəziyyətində KİV üzərində senzuranı həyata keçirmək kifayət qədər çətin idi.

Lakin hərbi əməliyyatların başa çatması, siyasi legitimliyin onun şərtləndirdiyi yanaşmalarla və yeni sosial-iqtisadi gerçəkliklərlə əlaqəsi müharibədən sonra KİV-in millətçi platformalardan imtina etməsi prosesində çətinliklər yaradır. Ermənistanda müharibənin nəticələrini və ya onun özəyində duran milli ideyanı təhlil etmək ehtiyacı hərbi qələbədən sonra zəifləmişdir; Azərbaycanda isə zəif iqtidar cəmiyyəti birləşdirən ideya kimi hərbi məğlubiyyət faktından məharətlə istifadə etmişdir, bu vəziyyətdə KİV daha tez-tez millətçi ritorikaya müraciət etmək məcburiyyətindədir. Hər iki ölkədə əhalinin kasıblaşması, inkişaf etməmiş infrastruktur və sərt tənzimləmə mexanizmi ona dəlalət edir ki, KİV öz istehlakçısı ilə bilavasitə münasibətlərdən deyil, dövlətin və ya dövlətdən asılı olan ayrı-ayrı varlı şəxslərin himayəsindən asılıdır. Əgər bu vəziyyəti Balkan ölkələri ilə müqayisə etsək, görərik ki, orada Qərb dövlətləri müstəqil KİV-in, xüsusilə də müxalif nəzər nöqtələrini ifadə edən medianın inkişafına olduqca böyük vəsait ayırmışlar. Ermənistan və Azərbaycanda isə KİV bazarında irəli çıxmaq üçün bütün vacib məsələlər üzrə rəsmi mövqeyi dəstəkləmək lazımdır.

Əgər 1990-cı illərin əvvəllərində KİV-in millətçi əhval-ruhiyyəsi antisovet və demokratik dəyərlərlə əlaqələndirilirdisə, bu gün belə diskurs siyasi baxışların orta məxrəcə gətirilməsi və sülh prosesində rəsmi mövqeyin dəstəklənməsi kimi qəbul edilir. Bu gün başlıca olaraq həyatda qalmaq uğrunda mübarizə aparan Ermənistan və Azərbaycan mediası gələcəkdə elə bir müstəqillik qazanmalıdır ki, bu müstəqillik onlara öz auditoriyalarını Qarabağ sülh prosesinin həm tənqidi, həm də konstruktiv təhlilinə cəlb etməyə imkan versin.